

*Mayis Səlim*

## *Bilirsən*

Canın-gözüm, heç özünü yorma sən,
Bənövşətək boynuburuq durma sən,
Möhkəm dayan, vüqarını qırma sən -
Mən kökümdən qurumuşam, bilirsən?

Nə xeyri var, yağış yağa, qar gələ,
Dənizləri lap başımdan tök elə,
Gecə-gündüz üstümə hey su çilə -
Mən kökümdən qurumuşam, bilirsən?

Yazım keçdi quraxsımış yay kimi,
Ömrüm ötdü özgələrə pay kimi,
Susuz qalmış o qupquru çay kimi -
Mən kökümdən qurumuşam, bilirsən?

Bir vaxt mən də gül açardım, gülərdim,
Hər tərəfi öz ətrimə bələrdim.
Bu halımı axı hardan bilərdim -
Mən kökümdən qurumuşam, bilirsən?

Bax, beləcə xəyallarım talandı,
Arzularım yanar oda qalandı,
Kim desə ki, göyərəcək, yalandı -
Mən kökümdən qurumuşam, bilirsən?

## *Oxşama*

Gəl sənə söyləyim, ay oğul, bil ki,
Necə ömür sürdüm, necə yaşadım.
Neyləyim, bəxtimin günü doğmadı,
Səhəri görmədim, gecə yaşadım.

Qoşulub baharın qönçə gülünə,
Açılmaq istədim, sazağa düşdüm.
Məni aldatdılar göz görə-görə,
Neçə yol tələyə, tuzağa düşdüm.

Ağ oldu üzümə çörək verdiyim,
Kimə can dedimsə, düşmənim oldu.
Gözlədim, gəlmədi ömrümün yazı,
Xəzan mənim oldu, qış mənim oldu.

Nə olsun belimdən gəlmisən mənim,
Çox da ki mən sənin atanam, oğlum -
Sən mənim ömrümü yaşama, haşa,
Sən mənə oxşama, qurbanın olum!

## *Gəlmisən*

Hardan belə uçub gəldin, pərvanəm,
Niyə belə gecikdin, ay bir dənəm?
Ümidlərə məzarlıqdır bu sinəm -
Bəxtin üzü dönən vaxtı gəlmisən.

İllər ötür, yaş üstünə yaş gəlir,
Əl açıram, daha göydən daş gəlir,
Payız gedir, yavaş-yavaş qış gəlir-
Gün axşama çönən vaxtı gəlmisən.

Unuduldum, ürəklərdə adım yox,
Hay verəsi bircə dostum-yadım yox,
Daha səni yandırmağa odum yox -
Çırağımın sönən vaxtı gəlmisən,
Bəxtin üzü dönən vaxtı gəlmisən!

## *Kəsdim*

Kəsdim bu eşqin başını,
Qanı əlimə bulaşır.
İçim daha xarabadır,
Orda bayquşlar ulaşır.

Bir deyil, beş deyil yaram,
Hansı birini bağlayım?
Eh, macal da tapammıram,
Oturub azca ağlayım.

Göydən bir daş düşsə əgər,
O da gəlib məni tapar.
Məni yaman qarğamışdın,
İndi baxıb, ləzzət apar.